# Azərbaycan Respublikasının Auditorlar Palatasında 2025-ci il ərzində fəaliyyət göstərən “dəyirmi masa”, təşkil olunan ictimai-siyasi tədbir, konfrans, seminar, ustad dərsləri, “Auditorun səsi” mövzusunda onlayn müzakirələr və həmin tədbirlərdə Palata üzvlərinin iştirakının vəziyyəti barədə

# H E S A B A T

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 10.2-cı “Auditin aktual problemləri üzrə konfransların, “dəyirmi masa”ların, ustad dərslərinin və seminarların təşkili” bəndinə və Palatanın icraçı direktoru Səbuhi Gülməmmədov tərəfindən 2025-ci ilin 09 yanvar tarixində təsdiq edilmiş “Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarının və üzvlərinin 2025-ci il üzrə ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrlə əlaqədar KİV-də fəaliyyətlərinin siyasi reytinqinə dair Tədbirlər Planı”na uyğun olaraq aşağıdakı tədbirlər keçirilmişdir:

## I. İCTİMAİ - SİYASİ TƏDBİRLƏR

1. Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru Səbuhi Gülməmmədov tərəfindən 2025-ci ilin 09 yanvar tarixində təsdiq edilmiş “Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşlarının və üzvlərinin 2025-ci il üzrə ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrlə əlaqədar KİV-də fəaliyyətlərinin siyasi reytinqinə dair tədbirlər Planı”nın 1-ci “20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr edilmiş tədbirin keçirilməsi” bəndinin icrasını təmin etmək məqsədilə 2025-ci ilin 17 yanvar tarixində 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr edilmiş onlayn tədbir (məsul icraçılar: Q.Bayramov, F.Qarayev, M.Hüseynova, Z.Almazov) keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2025-ci ilin 17 yanvar tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmiş və AZƏRTAC-da yayımlanmış, Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

2. Tədbirlər Planının 2-ci bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasında 2025-ci ilin 31 yanvar tarixində “Gənclər Günü”nə həsr edilmiş onlayn tədbir (məsul icraçılar: F.Qarayev, M.Hüseynova, Z.Almazov, N.İsmayılova) keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2025-cü ilin 31 yanvar tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

3. Tədbirlər Planının 3-cü bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasında 2025-ci ilin 26 fevral tarixində “Xocalı soyqırımı”nın 33-cü ildönümünə (məsul icraçılar: Q.Bayramov, E.Hacıyeva, M.Hüseynova, Z.Almazov) həsr edilmiş tədbir keçirilib. Tədbirin nəticəsi barədə məlumat 2025-cü ilin 26 fevral tarixində Palatanın sədri cənab V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

4. Tədbirlər Planının 4-cü ”8 Mart- Beynəlxalq Qadınlar Günü”nə həsr olunmuş tədbirin keçirilməsi” bəndinin (məsul icraçılar: B.Abbasov, N.Abdullayeva, M.Hüseynova) icrası ilə əlaqədar olaraq Palatanın sədri V.Novruzov 2025-ci ilin 05 mart tarixində Auditorlar Palatasının üzvü olan xanım auditorlara 8 mart- Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik məktubu göndərmiş və Palatanın xanım əməkdaşları mükafatlandırılmışdır.

5. Tədbirlər Planının 5-ci “20-21 Mart Novruz Bayramı”na həsr olunmuş tədbirin keçirilməsi” bəndinin (məsul icraçılar: S.Gülməmmədov, F.Qarayev, B.Abbasov, M.Hüseynova, N.İsmayılova, N.Abdullayeva, Z.Almazov) icrası ilə əlaqədar olaraq Palatanın sədri V.Novruzov 2025-ci ilin 17 mart tarixində Auditorlar Palatasının üzvlərinə Novruz Bayramı münasibətilə təbrik məktubu göndərmişdir.

7. Tədbirlər Planının 6-cı bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasında 2025-ci ilin 08 may tarixində Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş onlayn tədbir (məsul icraçılar: Q.Bayramov, E.İbrahimov, M.Hüseynova, Z.Almazov) keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2024-cü ilin 08 may tarixində Palatanın sədri V.Novruzova təqdim edilmiş və AZƏRTAC-da yayımlanmış, Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

8. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət adından yaradılan publik hüquqi şəxslərə, habelə digər aidiyyatı qurumlara ünvanladığı 2025-ci il 01 may tarixli 2-5/2-12938/2025 nömrəli müraciət məktubuna əsasən və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli sərəncamı ilə 18 iyun tarixinin ölkəmizdə “İnsan Hüquqları Günü” kimi təsis olunması ilə əlaqədar olaraq Auditorlar Palatasında 2025-ci ilin 10 iyun tarixində “18 İyun – İnsan Hüquqları Günü” münasibətilə onlayn tədbir (məsul icraçı: E.İbrahimov) keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2025-ci ilin 10 iyun tarixində Palatanın sədri V.Novruzova təqdim edilmiş və Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

9. Tədbirlər Planının 7-ci "6-7 iyun Qurban Bayramı" ilə əlaqədar olaraq qurbanlıq paylarının verilməsi" bəndinin (məsul icraçılar: S.Gülməmmədov, HİK-nin üzvləri, M.Hüseynova) icrası ilə əlaqədar olaraq

Palatanın sədri V.Novruzov 2025-ci ilin 05 iyun tarixində "Qurban Bayramı" münasibətilə Auditorlar Palatasının üzvlərinə təbrik məktubu ünvanlamış və Palatanın əməkdaşlarına və üzvlərinə qurbanlıq payları verilmişdir.

10. Tədbirlər Planının 8-ci bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasında 2025-ci ilin 13 iyun tarixində Auditorlar Palatasının üzvlərinin və əməkdaşlarının iştirakı ilə "15 İyun - Milli Qurtuluş Günü"nə həsr edilmiş onlayn tədbir (məsul icraçılar: Q.Bayramov, E.Qəmbərov, M.Hüseynova, Z.Almazov) keçirilmişdir Tədbirin nəticəsi barədə məlumat 2025-ci ilin 13 iyun tarixində Palatanın sədri V.Novruzova təqdim edilmiş və AZƏRTAC-da yayımlanmış, Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

11. Auditorlar Palatasında 2025-ci ilin 25 sentyabr tarixində Auditorlar Palatasının üzvlərinin və əməkdaşlarının iştirakı 27 sentyabr - Anım Gününün beşinci ildönümünə həsr olunmuş onlayn tədbir keçirilib və "Anım günü" münasibətilə Zəfər parkını ziyarət ediblər. Tədbirin nəticəsi barədə məlumat 2025-ci ilin 25 sentyabr tarixində Palatanın sədri V.Novruzova təqdim edilmiş və AZƏRTAC-da yayımlanmış, Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

12. Tədbirlər Planının 9-cu bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasında 2025-ci ilin 05 noyabr tarixində "8 noyabr Zəfər Günü"nün 5 illiyinə həsr olunmuş onlayn tədbir (məsul icraçılar: S.Gülməmmədov, V.Cavadov, M.Hüseynova, Z.Almazov) keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2025-ci ilin 05 noyabr tarixində Palatanın sədri V.Novruzova təqdim edilmiş və AZƏRTAC-da yayımlanmış, Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

13. Tədbirlər Planının 10-cu bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasında 2025-ci ilin 10 dekabr tarixində "12 Dekabr Ümummilli Lider Heydər Əliyev"in xatirəsinə həsr olunmuş tədbir (məsul icraçılar: S.Gülməmmədov, Q.Bayramov, R.Cəfərli, M.Hüseynova, Z.Almazov) keçirilmişdir. Tədbirin nəticəsi barədə məlumat 2025-ci ilin 10 dekabr tarixində Palatanın sədri V.Novruzova təqdim edilmiş və AZƏRTAC-da yayımlanmış, Palatanın internet və sosial şəbəkələrindəki səhifələrində yerləşdirilmişdir.

14. İctimai-siyasi tədbirlərin qrafikinə uyğun olaraq "31 dekabr- Dünya Azərbaycanlılarının Həmrəylik Günü" və Yeni il bayramına həsr olunmuş tədbirin keçirilməsi" (məsul icraçılar: S.Gülməmmədov, F.Qarayev, B.Abbasov, V.Cavadov, N.İsmayılova, M.Hüseynova, N.Abdullayeva, Z.Almazov) nəzərdə tutulmuşdur.

## II. KONFRANSLAR

1. Ölkə Prezidenti İlham Əliyev cənabları tərəfindən 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi və bununla bağlı “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli Sərəncamından irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Auditorlar Palatası, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Azərbaycan İqtisadçılar İttifaqının birgə təşkilatçılığı ilə 2025-ci il 13 mart tarixində “Konstitusiya və Suverenlik İli”nə həsr edilmiş “Maliyyə nəzarəti - dövlətin və özəl sektorun konstitusion hüquqlarının qorunmasının təminatçısı kimi” mövzusunda konfrans keçirilib

Konfransda açılış nitqi ilə çıxış edən Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov qonaqları salamlayıb, tədbirin əhəmiyyətindən bəhs edib və konfransın işinə uğurlar arzulayıb. Tədbirdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli “Vergi islahatlarının maliyyə nəzarətinin gücləndirilməsinə və özəl sektorda uçot sisteminin bərpasına təsiri”, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədr müavini Natiq Şirinov “Rəqəmsal gömrük: Ticarətin asanlaşdırılması və büdcə dayanıqlılığı kontekstində”, Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədr müavini Azər Abbasov “ƏL/TMM-ə qarşı mübarizə ölkənin maliyyə təhlükəsizliyinin mühüm amili kimi”, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov “Maliyyə təhlükəsizliyi və kadr hazırlığına yeni dövrün çağırışları”, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə “Azərbaycan Respublikasında maliyyə nəzarətinin qanunvericilik bazası və onun təkmilləşdirilməsi məsələləri”, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov “Audit konstitusiya və suverenlik zəminində”, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü Qorxmaz İmanov “Süni intellektin maliyyə nəzarətində istifadə imkanları”, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) “Maliyyə və audit” kafedrasının müdiri Əvəz Ələkbərov “Maliyyə şəffaflığı, elm və praktikanın vəhdəti: müasir çağırışlar”, Azərbaycan Respublikası Hesablama Palatasının şöbə müdiri Zaur Vəliyev “İqtisadi təhlükəsizliyin təmin edilməsində dövlət auditinin rolu”, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Uçot siyasəti şöbəsinin müdiri Firuzə Abdullayeva “Dövlət maliyyə nəzarəti və audit”, Azərbaycan Respublikası Auditorlar Palatasının Şura üzvü, sərbəst auditor Altay Cəfərov “Özəl sektorun dayanıqlı inkişafında və qanuni mənafelərin qorunmasında auditin rolu”, Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti Elşad Səmədzadə “Maliyyə

nəzarəti konstitusiya hüquqlarının keşiyində", Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, "SR Audit Solutions" MMC-nin direktoru Səftər Vəlizadə "Qanunsuz yolla əldə olunmuş əmlakın leqallaşdırılmasına qarşı mübarizədə müstəqil auditin rolu və vəzifələri", "Bakı Metropoliteni" QSC-nin Daxili audit departamentinin rəisi Elvin Hacıyev "Dövlət investisiya layihələrinin səmərəliliyinin təmin olunmasında maliyyə nəzarətinin rolu" mövzularında məruzələrlə çıxış ediblər və faydalı fikir mübadiləsi aparılıb.

Konfransda dövlət qurumlarının nümayəndələri, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professor-müəllim heyəti, Auditorlar Palatasının üzvləri və kollektivi, Azərbaycan İqtisadçılar İttifaqının nümayəndələri iştirak ediblər.

2. Auditorlar Palatasının 2025-ci il üzrə İş Planı"nın 10.2.11-ci "ƏL/TM-ə qarşı mübarizədə auditorların rolu, vəzifələri və məsuliyyəti sahəsində əhəmiyyətli dəyişikliklərin edilməsi barədə" dəyirmi masanın keçirilməsi bəndinin icrası ilə əlaqədar olaraq 2025-ci ilin 27 yanvar tarixində Palata sədrinə Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsi tərəfindən xidməti məktub göndərilmiş və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti" mövzusunda konfransın keçirilməsi təklif olunmuşdur.

Palata sədri tərəfindən təklif qəbul olunmuş və Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı" Tədbirlər Planına uyğun olaraq Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə ölkəmizin müvafiq qurumlarının, habelə xarici ölkələrin (İsrail, Pakistan, Latviya) audit və mühasibatlıq qurumlarının rəhbərləri və ƏL/TMM üzrə mütəxəssislərinin iştirakı ilə 2025-ci ilin 23 may tarixində "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti" mövzusunda beynəlxalq elmi-praktik konfransı keçirilib.

Konfransı giriş sözü ilə Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov, Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin İdarə Heyətinin sədri Zaur Fətizadə, Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini Anar Axundov, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, İsrailin Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Corc Dik, Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti Saif Ullah və İsrailin Sertifikatlı İctimai Mühasiblər İnstitutunun (ICPAI) prezidenti Çen Şrayber açaraq, tədbirin əhəmiyyətindən bəhs ediblər və konfransın işinə uğurlar

arzulayıblar. Konfransda həmçinin Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti Saif Ullah "ƏL/TM-ə qarşı mübarizədə Pakistan təcrübəsi", İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva "ƏL/TMM sahəsində Vergi Xidməti və əlaqəli qurumların rolu", Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə "Real sektorda sağlam rəqabət mühitinin yaradılması kölgə iqtsadiyyatının azaldılması, çirkli pulların yuyulmasına qarşı mübarizənin strateji amili kimi", Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov "Təhsilin fərdiləşdirilməsi və dəyərlərin prioritetləşdirilməsi - mübarizənin uğur modeli", Türkiyənin Sertifikatlı Mühasiblər Palataları Birliyinin (TÜRMOB) Beynəlxalq əlaqələr departamentinin rəhbəri Seher Gündoğdu "Türkiyədə çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində təlim, məlumatlandırma və əməkdaşlıq istiqamətlərində TÜRMOB-un fəaliyyətinin səmərəliliyi", İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun (ICPAI) İdarə Heyətinin üzvü, İqtisadi Cinayətlərə və Çirkli Pulların Yuyulmasına Qarşı Mübarizə Komitəsinin sədri Simon Yaniv "İsraildə çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə qanunvericiliyin prinsipləri", Azərbaycan Respublikası Mərkəzi Bankının Baş direktoru Fuad İsayev "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikası Mərkəzi Bankının rolu", Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini Rauf Səlimov "Müşahidə olunmayan iqtisadiyyatın statistik qiymətləndirilməsi", İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun (ICPAI) Direktorlar Şurasının üzvü, Blokçeyn və Kriptovalyutalar üzrə Komitəsinin sədri Roi Katz "Çirkli pulların yuyulmasına qarşı mübarizədə mövcud bank qaydaları", Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nəzarət və hüquq mühafizə orqanları ilə iş departamentinin direktoru Nurlan Babayev "ƏL/TMM üzrə risk əsaslı nəzarət konsepsiyası", Azərbaycan Respublikası Hesablama Palatasının Dövlət gəlirlərinin və iqtisadi sahələrin auditi şöbəsinin müdiri Azim Abbasov "Dövlət vəsaitinin mənimsənilməsinə qarşı mübarizədə Hesablama Palatasının rolu", Latviyanın Sertifikatlı Auditorlar Assosiasiyasının (LZRA) üzvü, ƏL/TMM üzrə mütəxəsis Kiril Kondratovs "Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə və sanksiyalarda andlı auditorların rolu", Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Mütəxəssis təhlilləri şöbəsinin rəis müavini Tural Vəlibəyov "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinin istintaqı zamanı maliyyə təhlili məlumatlarından istifadə edilməsi təcrübəsinin genişləndirilməsi, bu məlumatlara olan ehtiyacların təhlil edilməsi və mütərəqqi çağırışlara yönələn tədbirlərin həyata keçirilməsi üçün təkliflər", İsrailin Enerji infrastrukturu üzrə şirkətinin icraçı direktorunun müavini və maliyyə rəhbəri Eli Zuker

“Böyük korporasiyalarda maliyyə rəhbərləri üçün ƏL/TMM üzrə qanunvericiliyin təsirləri”, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Audit şöbəsinin müdiri Ramil Əliyev “Çirkli pulların yuyulmasına qarşı mübarizədə etik davranış və institusional məsuliyyət: Həmkarlar ittifaqlarının rolu”, Azərbaycan Respublikası Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi Elnur İbrahimov “Azərbaycan Respublikası Auditorlar Palatasının nəzarət oqanı kimi cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə iştirakı”, Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov “Auditorların peşə etik tələbləri və ƏL/TMM qanunvericiliyi”, Auditorlar Palatasının Şurası yanında ƏL/TMM üzrə komitənin sədri, “VXA Audit” MMC-nin direktoru Elçin Qurbanov “ƏL/TMM fəlsəfəsi və bu barədə ictimai şüurun formalaşdırılması”, Auditorlar Palatasının üzvü, “SR Audit Solutions” MMC-nin direktoru Səftər Vəlizadə “ƏL/TM-ə qarşı mübarizədə müstəqil auditin potensial imkanları”, Auditorlar Palatasının üzvü, sərbəst auditor Şamxal Kərimov “ƏL/TMM-də Süni İntellektin tətbiqi və onun kadr təminatı” mövzusunda məruzələrlə çıxış ediblər.

Konfransın yekununda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, habelə təqdim edilən materialların toplu şəklində nəşr etdirilməsi və tövsiyələrin hazırlanması qərara alınıb.

## III. DƏYİRMİ MASALAR

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 10.2-cı “Auditin aktual problemləri üzrə konfransların, “dəyirmi masa”ların, ustad dərslərinin və seminarların təşkili” və 2024-cü il 29 dekabr tarixli 372/1 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə İş Planı”nın 10.2.2-ci “Haqsız rəqabət hallarının qarşısının alınmasına dair dəyirmi masanın keçirilməsi” bəndinin icrası ilə əlaqədar 2025-ci ilin 16 yanvar tarixində “Haqsız rəqabət hallarının qarşısının alınması barədə” “Dəyirmi masa” keçirilmişdir.

Həmin “Dəyirmi masa”nın keçirilməsi ilə əlaqədar 2025-ci ilin 09 yanvar tarixində “Dəyirmi masa”nın üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsi 2025-ci il 16 yanvar tarixli 01 nömrəli protokolla (İclasın sədri – Q.Bayramov, iclasın katibi – F.Kamalova)

rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 2025-ci ilin 16 yanvar tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilmişdir.

“Dəyirmi masa”da 18 nəfər “Dəyirmi masa”nın üzvləri, 3 nəfər Palatanın əməkdaşları iştirak etmişdir. 10 nəfər “Dəyimi masa” üzvü iştirak etməmişdir

2. Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 10.2.4-cü “Tender və kotirovkalar ilə əlaqədar aidiyyəti qurumlara göndərilməsi üçün təkliflərin hazırlanması məqsədilə “Dəyirmi masa”nın keçirilməsi” və Auditorlar Palatası sədrinin “Auditorlar Palatasında “Auditorun səsi” mövzusunda 2024-cü ilin 26 noyabr tarixində keçirilən onlayn tədbirdə verilən təkliflərin reallaşdırılması barədə” 2024-cü il 06 dekabr tarixli 10-1/3-3-14/2024 nömrəli Sərəncamının icrası ilə əlaqədar 2025-ci ilin 24 yanvar tarixində “Tender və katirovkalar ilə əlaqədar aidiyyəti qurumlara göndərilməsi üçün təkliflərin hazırlanması barədə” “Dəyirmi masa” keçirilmişdir.

Həmin “Dəyirmi masa”nın keçirilməsi ilə əlaqədar 2025-ci ilin 15 yanvar tarixində “Dəyirmi masa”nın üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsi 2025-ci il 24 yanvar tarixli 02 nömrəli protokolla (İclasın sədri – Q.Bayramov, iclasın katibi – F.Kamalova) rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 2025-ci ilin 24 yanvar tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilmişdir.

“Dəyirmi masa”da 15 nəfər “Dəyirmi masa”nın üzvü, 4 nəfər Palatanın əməkdaşları iştirak etmişdir. 13 nəfər “Dəyimi masa” üzvü iştirak etməmişdir .

3. Auditorlar Palatasında 2025-ci ilin 18 mart tarixində Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 6.4-cü “Haqsız rəqabətlə bağlı anonim şikayətlərin və iddiaların qəbul olunması üçün xüsusi bir mexanizmin yaradılması və tətbiq edilməsi” və 6.6-cı “Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflərin işlənib hazırlanması” bəndlərinə uyğun olaraq Auditorlar Palatası Şurasının 2025-ci il 28 fevral tarixli 374/5 və 374/6 nömrəli qərarlarının icrasını təmin etmək məqsədilə həmin mövzulara dair “Dəyirmi masa” keçirilmişdir.

Həmin “Dəyirmi masa”nın keçirilməsi ilə əlaqədar 2025-ci ilin 12 mart tarixində “Dəyirmi masa”nın üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsi 2025-ci il 18 mart tarixli 03 nömrəli protokolla (İclasın sədri – Q.Bayramov, iclasın katibi – E.Hacızadə) rəsmiləşdirilmişdir.

“Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 2025-ci il 18 mart tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilmişdir.

“Dəyirmi masa”da 16 nəfər “Dəyirmi masa”nın üzvləri və 8 nəfər Palatanın əməkdaşları iştirak iştirak etmişdir. 12 nəfər “Dəyimi masa” üzvü iştirak etməmişdir .

4. Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 10.2.13-cü “Beynəlxalq Audit Standartlarının tələbləri əsasında audit sübutlarının toplanması üzrə hazırlanmış metodik vəsait və müvafiq formalara dair dəyirmi masanın keçirilməsi” bəndinin icrası ilə əlaqədar 2025-ci ilin 16 aprel tarixində “Beynəlxalq Audit Standartlarının tələbləri əsasında audit sübutlarının toplanması üzrə hazırlanmış metodik vəsait və müvafiq formaların hazırlanması barədə” “Dəyirmi masa” keçirilmişdir.

Həmin “Dəyirmi masa”nın keçirilməsi ilə əlaqədar 2025-ci ilin 09 aprel tarixində “Dəyirmi masa”nın üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsi 2025-ci il 16 aprel tarixli 04 nömrəli protokolla (İclasın sədri – Q.Bayramov, iclasın katibi – N.İsmayılova) rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 16 yanvar tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilmişdir.

“Dəyirmi masa”da 15 nəfər “Dəyirmi masa”nın üzvləri və 4 nəfər Palatanın əməkdaşları iştirak etmişdir. 13 nəfər “Dəyimi masa” üzvü iştirak etməmişdir.

5. Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 10.2.17-ci “Auditdə dələduzluq hallarının aşkarlanması və qarşısının alınması” mövzusunda dəyirmi masanın keçirilməsi bəndinin icrası ilə əlaqədar 2025-ci ilin 16 iyul tarixində “Auditdə dələduzluq hallarının aşkarlanması və qarşısının alınması barədə” “Dəyirmi masa” keçirilmişdir.

Həmin “Dəyirmi masa”nın keçirilməsi ilə əlaqədar 2025-ci ilin 07 iyul tarixində “Dəyirmi masa”nın üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsi 2025-ci ilin 16 iyul tarixli 05 nömrəli protokolla (İclasın sədri – Q.Bayramov, iclasın katibi – F.Kamalova) rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 2025-ci ilin 16 iyul tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilmişdir.

“Dəyirmi masa”da 14 nəfər “Dəyirmi masa”nın üzvləri və 6 nəfər Palatanın əməkdaşları iştirak etmişdir. 14 nəfər “Dəyimi masa” üzvü iştirak etməmişdir.

6. Auditorlar Palatasında 2025-ci ilin 03 sentyabr tarixində “Haqsız rəqabət və dempinq hallarına yol verən auditorlara qarşı mübarizənin gücləndirilməsi üzrə təkliflərin işlənib hazırlanması” mövzusunda “Dəyirmi masa” keçirilmişdir.

Həmin “Dəyirmi masa”nın keçirilməsi ilə əlaqədar 2025-ci ilin 28 avqust tarixində “Dəyirmi masa”nın üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri R.Cəfərli tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsi 2025-ci ilin 03 sentyabr tarixli 06 nömrəli protokolla (İclasın sədri – R.Cəfərli, iclasın katibi – F.Kamalova) rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 2025-ci ilin 03 sentyabr tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilmişdir.

“Dəyirmi masa”da 14 nəfər “Dəyirmi masa”nın üzvləri və 3 nəfər Palatanın əməkdaşları iştirak etmişdir. 14 nəfər “Dəyimi masa” üzvü iştirak etməmişdir.

7. Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 10.2.24-cü “Təsərrüfat subyektlərinin rəhbərləri ilə maliyyə hesabatlılığı və auditi ilə bağlı dəyirmi masanın təşkili (müvafiq qurumlarla birlikdə)” bəndinin icrası ilə əlaqədar 2025-ci ilin 07 noyabr tarixində “Auditdə dələduzluq hallarının aşkarlanması və qarşısının alınması barədə” “Dəyirmi masa” keçirilmişdir.

Həmin “Dəyirmi masa”nın keçirilməsi ilə əlaqədar 2025-ci ilin 31 oktyabr tarixində “Dəyirmi masa”nın üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsi 2025-ci ilin 07 noyabr tarixli 06 nömrəli protokolla (İclasın sədri – Q.Bayramov, iclasın katibi – F.Kamalova) rəsmiləşdirilmişdir. “Dəyirmi masa”nın nəticəsinə dair hazırlanmış məlumat 2025-ci ilin 07 noyabr tarixində Palatanın internet və sosial şəbəkələrdəki səhifələrində yerləşdirilmişdir.

“Dəyirmi masa”da 15 nəfər “Dəyirmi masa”nın üzvləri və 5 nəfər Palatanın struktur bölmələrinin əməkdaşları iştirak etmişdir. 13 nəfər “Dəyimi masa” üzvü iştirak etməmişdir.

## IV.SEMİNARLAR

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 10.2-cı “Auditin aktual problemləri üzrə konfransların, “dəyirmi masa”ların, ustad dərslərinin və seminarların təşkili” və 2024-cü il 29 dekabr tarixli 372/1 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə İş Planı”nın 10.2.1-ci “Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tətbiqinə dair seminarın keçirilməsi” (moderator – Aparatın rəhbəri Q.Bayramov; məruzəçi – Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov) bəndinin icrası ilə əlaqədar 2025-ci ilin 31 yanvar tarixində “Peşəkar Mühasiblərin Beynəlxalq

Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tətbiqi” mövzusunda seminar keçirilmişdir.

Həmin seminarın keçirilməsi ilə əlaqədar 2025-ci ilin 24 yanvar tarixində Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara Aparatın rəhbəri Q.Bayramov tərəfindən məktub göndərilmiş və Palatanın internet səhifəsində müvafiq elan yerləşdirilmişdir.

Seminarda mövzu ətrafında geniş müzakirələr aparılmış və dinləyicilərin sualları cavablandırılmışdır.

Seminarda Auditorlar Palatanın üzvləri olan 76 nəfər auditor təşkilatlarının nümayəndələri və sərbəst auditorlar iştirak etmişdir.

